# MUNCUQLUTƏPƏ NEKROPOLU

***Bəhlul İbrahimov***
*Azərbaycan Milli Elmlər akademiyası*

Muncuqlutəpə nekropolu Ordubad rayonu ərazisində, Plovdağ tunc dövrü abidəsi ilə Xaraba-Gilan orta əsrlər şəhər yeri arasında, Gilançayın qolu olan (yayda quruyan) Xalı-Keşan çayının sağ sahilində, kiçik təpənin üzərində yerləşir. Təpənin üzəri düzdür, quruluşuna və coğrafi mövqeyinə görə sanki süni surətdə yaradılmışdır. Burada, təqribən 1600-1700 kv.m. sahədə 33 sərdabə tipli qəbir kompleksi tədqiq edilmişdir. Muncuqlutəpə nekropolunun sərdabələrini çoxdəfnli qəbirlərin ən yaxşı nümunələri hesab etmək olar.

1N-li sərdabə düzgün olmayan dördbucaqlı plandadır, cənub-qərb istiqamətindədir. Örtük daşları saxlanmamışdır, kameranın ölçüləri 1,4x1,2x0,89 m-dir. Qəbrin şimal-qərb küncündən bir ədəd kiçik həcmli, çəhrayı gilli, düz oturacaqlı, düz divarlı, ağız hissəsinin bayır tərəfində iki ədəd qarşı-qarşıya şiş çıxıntıları vardır.

2N-li sərdabə tamamilə dağıntıya məruz qaldığından iki ədəd mincuqdan başqa material əldə edilmədi.

3N-li sərdabə düzgün olmayan dördbucaqlı formasındadır. Örtük daşları saxlanmamışdır. Ətrafına dördbucaqlı planda daş döşənmişdir, perimetr üzrə ensiz, uzun daşlar düzülmüşdür. Qəbrin cənub divarının qərb tərəfi nisbətən kameranın içərisinə tərəf işlənmişdir. Ona görə də qəbrin qərb tərəfi şərq tərəfindən 40 sm-ə qədər ensizdir. Sərdabənin qərb divarına bir ədəd sal daş dikinə qyulmuş, qalan divarları isə üfüqi düzülmüş müxtəlif qalınlıqlı daşlarla işlənmişdir. Qəbrin içərisi dağıdılmış və qarət olunmuşdur. Sınmış, ovulmuş skelet qalıqları kameraya dolmuş torpağın içərisində və döşəmədə aşkar edilirdi. Qəbirdən ucları birləşməyən tunc qolbaq, ucları bir-birinin üzərində olan tunc həlqə, əqiq muncuqlu iki sırğa, səkkiz ədəd əqiqdən hazırlanmış, iki ədəd də sürmədən hazırlanmış eninə deşikləri olan muncuq, iki ədəd pstadan, iki ədəd ağ mərmərdən hazırlanmış muncuq, uzərində üfüqi və şaquli yapma bəzəkləri olan boz və çəhrayı gilli qab fraqmentləri tapıldı.

3N-li sərdabənin qurbangahı (3A) qəbirdən cənub-qərb tərəfdə yerləşir. Örtük daşları saxlanmamışdır, dördbucaqlı plandadır, ölçüləri 1,3x0,95 m, dərinliyi 0,55 m-dir. Qurbangahın içərisi 6 sm qalınlığında, dikinə qoyulmuş sal daşla iki hissəyə bölünmüşdür. Eni 0,48 m olan cənub yarısında səkkiz gil qab aşkar edildi. Bu qablardan çəhrayı gilli ikisindən biri, sixilmiş şar gövdəli, ağzının kənarı xaricə açılan, lüləsinin ucu aşağı əyilmiş vəziyyətdə, ağzının lülə ilə qarşı tərəfində qulp əvəzi yapması olan, düz oturacaqlı, oturacağında deşiyi olan çaynik tipli qab, ikincisi isə içi boş konusvarı oturacağı olan üstü düz altlıq idi. Qurbangahda çoxluq təşkil edən boz gilli aıtı qabdan biri, çaynik tipli, ikincisi kiçik həcmli qab, üçüncüsü, yarımşar formalı qab, dördüncüsü, dəyirmi divarlı, bir tərəfində şaquli deşikli yapması olan dərin kasa, altıncısı isə dəyirmi divarlı boşqab idi.

Qurbangahın eni 0,73 m olan şimal yarısında boz, sarı və çəhrayı gilli 14 ədəd gil qab aşkar edildi. Sarı gilli qablar bir ədəd geniş ağızlı, ağzının kənarı xaricə açılan, çərtmə naxışlı çölmək tipli qab və ağzına yaxın deşiyi olan boşqabdan; çəhrayı gilli qablar, bir ədəd çiyin hissəsində çərtmə naxışları olan çatnik tipli qabdan, bir ədəd içi boş konusvarı oturacaqlı üstü düz altlıqdan, bir ədəd dar boğazlı, üzərində çərtmə naxışları olan çölmək tipli qabdan, bir ədəd armudvari gövdəli, dar boğazlı küpədən, bir ədəd düz divarlı, ağzının kənarı xaricə açılan qabdan; boz gilli qablar isə beş ədəd müxtəlif ölçülü boşqabdan ibarət idi. Gil qablardan başqa qurbangahdan bir ədəd tunc sırğa və bir ədəd yumru əqiq muncuq aşkar edildi. Böyük ehtimalla metal əşyaların qurbangaha sonradan- yaxınlıqdakı qəbirlər dağıdəlarkən düşdüyünü söyləmək olar.

4N-li sərdabə nekropolun ən böyük sərdabələrindən biridir. Ətrafına dördbucaqlı planda (4,0x5,0 m) daş döşənmişdir. Örtük daşları saxlanmamışdır. Qəbrin dördbucaqlı kamerasının ölçüləri 2,55x1,9-1,3 m, dərinliyi 0,85 m-dir. Qəbrin divarları müxtəlif ölçülü daşlarla işlənmişdir. Qərb divarının ortasında uzunluğu 0,6 m, eni 0,35 m, dərinliyi isə 0,55 m olan giriş yolu qurulmuşdur. Giriş yolunu bağlayan sal daş aşkar edilmədi. Qəbrin kamerası dikinə qoyulmuş sal daşlarla iki hissəyə bölünmüşdür. Hər iki hissədə kameraya dolmuş torpağın içərisindən və döşəmədən skelet sümüklərinin qalıqları, keramika və bəzək əşyaları tapılırdı. Qərb hissədə ağzı nisbətən dar və kənara aşılan, qırmızı gilli, içərisində bişməmiş gildən 3 ədəd qoyun fiquru

(9,0x3,-4,0 sm) tapılan çölmək tipli qab, bir neçə ədəd çəhrayı və boz gilli qab, dördbucaqlı formada, ortasının çuxur yerində kəsişən xətlərlə cızma naxışlı və hər iki tərəfində deşikləri olan bir əşya(ehtimal ki, amuletdir), diametri 2,6-2,3 sm olan tunc üzük, baş tərəfi həlqəvari formada əyilmiş baş sancağı, asma bəzək, balıqqulağından, tuncdan, əqiqdən və daşdan hazırlanmış muncuqlar aşkar edildi. Qəbrin giriş yolundan da gil qab fraqmentləri tapıldı.

4N-li sərdabənin qurbangahı (4A) dörbucaqlı planda olub ölçüləri 0,82x0,87 m, dərinliyi 0,62 m-dir. Qurbangah qəbrin qərb tərəfində yerləşmişdir, içərisindən bəziləri bir-birinin içərisində olan çəhrayı gilli qablar tapıldı. Onlardan ikisi konusvari oturacaqlı, şar gövdəli, tək qulplu bokal tipli qab, biri çəkmə formalı qab, ağzının bir tərəfində məməciyə oxşar deşikli çıxıntısı olan və bəzilərinin ağzının kənarına hər iki tərəfdən boya ilə zolaq çəkilmiş 15 ədəd boşqab, biri hər iki tərəfdən məməcikli yapması olan boşqab, biri konusvari oturacaqlı qab fraqmenti, ikisi ayaqları insan ayağına oxşadılmış üstü düz üçayaq, biri açıq lüləli, ağzının kənarı azca xaricə açılan, lülənin əks tərəfində qulp əvəzi çıxıntısı olan çaynik tipli qab, geniş ağızlı, bəzilərinin oturacağında deşik olan çölməklər, biri dar boğazlı küpə, biri dörd ədəd qısa, düz ayaqları olan, profildən kök qoyuna oxşayan, oval formalı, kiçik həcmli zoomorf qab, biri boz gilli, yastı oturacaqlı qab idi. Bunlardan başqa qurbangahdan tunc qolbaqlar, əqiq muncuqlu, həlqə formasında üzük, tunc zəncir fraqmentləri, muncuq düzümlü sırğalar, yastı dəmir əşya fraqmentləri, dəvəgözü daşı qəlpələri və müxtəlif muncuqlar aşkar edildi.

4N-li sərdabənin daha iki (4B,4C), dairəvi planda qurbangahı vardır ki, onlardan biri 4A qubangahına şimal tərəfdən, digəri isə cənub tərəfdən bitişik işlənmişdir. Onların forması və yerləşməsi qurbangah olduqlarını, kameralarında aşkar edilmiş avadanlıq isə onlardan sonradan qəbir kimi istifadə olunduğunu göstərir.

4B qurbangahının diametri 1,5 m, dərinliyi 0,62 m olub, üstü sal daşlarla örtülmüşdü. Divarlarının aşağı hissəsi şaquli qoyulmuş iri həcmli daşlarla, yuxarı hissəsi isə üfüqi düzülmüş daşlarla işlənmişdi. Qarət olunmuş və dağıdılmışdı. Belə ki, kameraya dolmuş torpaqın içərisindən osteoloji qalıqlar, üzərində düyməyə oxşar yapma bəzəkləri olan çölməklər, altlıqlar, çaynik tipli qabların lülə hissələri, çəkmə formasında, boğaz hissəsində düyməyə oxşar yapma bəzəkləri olan

qab, əqiq muncuqlu tunc həlqə, profildən armudvari tunc asma bəzək, 3 ədəd tunc həlqə, tunc düymələr, tuncdan hazırlanmış zəncir fraqmentləri və müxtəlif muncuqlar aşkar edildi.

4C qurbangahının diametri 1,45 m, dərinliyi 0,92 m-dir. Bu qurbangahdan 4A qurbangahından əldə edilən materiallara oxşar gil qablar, tunc əşyalar, muncuqlarla birlikdə dəmir əşya fraqmentləri də tapıldı.

5N-li sərdabə şərq-qərb istiqamətində olub, uzunluğu 1,6 m, eni 0,7 m, dərinliyi 0,8 m-dir. Sərdabənin şərq tərəfində salamat qalmış örtük daşları ensiz, uzun sal daşlardan ibarət idi. Qəbrin şimal divarının üst hissəsi və ətrafına döşənmiş daşlar, qərb divarının üst hissəsi və giriş yolu dağıdılmışdır. Qarət olunduğundan qəbrə qoyulmuş gil qabların çoxu fraqmentlər halında tapılırdı. Qəbirdə çəhrayı gilli qablar çoxluq təşkil edirdi. Gil qablar içərisində üçayaq aitlıqlar, çaynik tipli qabların fraqmentləri, bir ədəd burnu qatlanmış, üzərində cizma və yapma naxışları olan çəkmə formasında qab diqqəti cəlb edir. Keramikadan başqa qəbirdən tunc qolbaq, ilgəkli düymə, əqiq, balıqqulağı və mərmərdən hazırlanmış muncuqlar aşkar edildi.

5N-li sərdabənin qürbangahı (5A) qəbrin qərb tərəfində yerləşir, qarət olunmuşdur.

6N-li sərdabənin örtük daşlarının bir hissəsi salamat qalmışdır, ətrafına daş döşənmişdir. Dördbucaqlı plandadır, uzunluğu 2,5 m, eni 1,3 m, dərinliyi 0,9 m-dir. Qərb divarında üstü sal daşla örtülü giriş yolu vardır. Qəbir öz vaxtında qarət olunmuş və sonrskı dövrlərdə bir neçə dəfə dağıntıya məruz qalmışdır. Belə ki, qəbrə dolmuş torpağın içərisindən skelet sümüklərinin qalıqları, gil qab fraqmentləri və müxtəlif bəzək əşyaları aşkar edildi. Gil qablar içərisində boşqablar, çölməklər, çaynik tipli qablar, bokal və küp fraqmentləri var idi. Bəzək əşyaları tunc qolbaqdan, baş sancaqlarından, düymələrdən, sırğalardan, əqiq, mərmər, balıqqulağı və pastadan hazırlanmış muncuqlardan ibarət idi.

6N-li sərdabənin qurbangahı (6A) qəbrin cənub-qərb tərəfindədir. Ölçüləri 1,2 x 0,97 m, dərinliyi 0,5 m-dir. Qurbangahdan 6 ədəd qaraboz gilli, 7 ədəd isə çəhrayı gilli qab aşkar edildi. Qabların ikisi kameranın ortasına qoyulmuş, qalanları isə divarların yanına düzülmüşdü. Üç kiçik qab böyük qazanın içərisinə qoyulmuşdu. Gil qablar əsasən çanaq, çölmək, boşqab, qazan və kiçik həcmli qablardan ibarət idi.

8 N-li sərdabə. Dördbucaqlı plandadır, ətrafına daş döşənmişdir. Örtük daşlarının bir hissəsi saxlanmışdır. Ölçüləri 1,7 x 1,7 m, dərinliyi 0,8 m-dir. Şimal-şərq divarında uzunluğu 0,9 m, dərinliyi 0,6 m olan giriş yolu vardır. Giriş yolu 0,65 x 0,5 m ölçülərində daş plitə ilə örtülmüşdür. Qəbrin içərisinə dolmuş torpaqdan böyüklərə və uşaqlara məxsus skeletlərin dağıdılmış qalıqları, keramika və bəzək əşyaları aşkar edildi. Gil qablar çanaq, çölmək altlıq və boşqab fraqmentlərindən, bəzək əşyaları tuncdan hazırlanmış ilan başlı qolbaqlardan, tunc üzüklərdən, tunc sırğalardan, baş sancaqlarından, müxtəlif formalı düymələrdən, dəmirdən bıçaq fraqmentlərindən və müxtəlif muncuqlardan ibarət idi. Muncuqlar əsasən əqiqdən, balıqqulağından, mərmər daşdan, şüşəyə bənzər mavi rəngli maddədən və tuncdan hazırlanmışdır. Onların içərisində çəki daşı formasında urartu tipli möhür diqqəti cəlb edir. Qəbirdən yuxarıdakılardan başqa aşıq sümükləri və dəvəgözü daşının qəlpələri də tapılırdı.

8N-li sərdabənin qurbangahı (8A) sərdabəyə şərq tərəfdən bitişik işlənmişdir. Örtük daşları saxlanmamışdır, təqribən kvadrat formasındadır. Divarları 4-5 qat dağ daşları ilə işlənmişdir. Öz vaxtında qarət olunmuş və sonrakı dövrlərdə dağıntiya məruz qalmışdır. Belə ki, kameranın qərb hissəsində, 28-30 sm dərinlikdə insan skeletinin qalıqlarına, qara gilli, qulplu qabın qiriqlarına, tuncdan hazırlanmış, iki qanadlı, saplaqlı ox ucluğu, qara gilli kupə, qırmızı gilli qab fraqmentləri, çəhrayı gilli boşqaba və tuncdan hazırlanmış uşaq qolbağına təsadüf edildi. Kameranın mərkəzi hissəsində çəhrayı gilli boşqab, altında tunc əşya fraqmentləri, onun yanında uşaq skeleti, 45 sm dərinlikdə isə boyuk və uşaq skeletləri aşkar edildi. Qurbangahdan yuxarıdakılardan başqa tuncdan hazırlanmış biz, həlqə, slrğa, dəmirdən hazırlanmış bicaq fraqmentləri, əqiqdən, balıqqulağından və pastadan hazırlanmış muncuqlar tapıldı.

9N-li sərdabənin ətrafına şimaldan cənuba 3,5 m, şərqdən qərbə 3,7 m ölçülərində daş döşənmişdir. Qəbrin örtük daşlarından yalnız ikisi salamat qalmışdır. Kameranın uzunluğu 1,7 m, eni 1,15 m, dərinliyi 0,75 m-dir. Divarları 5-6 cərgə üfüqi düzülmüş çay daşları ilə işlənmişdir. Şərq tərəfində divarları dikinə qoyulmuş sal daşlardan ibarət olan, uzunluğu 1,0 m, eni 0,6 m giriş yolu vardır. Sərdabənin qərb tərəfində örtük daşlarından ikisi salamat qalmışdır. Qəbir qarət olunmuş və dağıdılmışdır. Kameranın mərkəzi hissəsində insan skeletinə

məxsus sümüklər (32 ədəd bazu və bud sümükləri) nizamsız şəkildə tökülmüşdü. Avadanlıq ən çox giriş yolunun qarşısında tapılırdı. Burada çəhrayı gilli, stəkana oxşar qab, şar gövdəli, ilgəkvari qulplu qab, muxtəlif ölçülü boşqablar, iki ədəd üçayaqlı və bir ədəd silindrik oturacaqlı altlıq, uzun boğazlı, üzərində üç yumru və bir ədəd şaquli yerləşmiş yapması olan küpə, çaynik tipli qabın lüləsi və boz gilli süzgəc fraqmentləri, geniş ağızlı çolmək fraqmenti aşkar edildi. Bunlardan başqa qəbirdən tunc həlqə, qolbaq, asma bəzək, zəncir, xəncər fraqmentləri, gümüş üzük, əqiqdən, balıqqulağından və müxtəlif minerallardan hazırlanmış muncuqlar tapıldı.

9N-li sərdabənin qurbangahı (9A) qəbrin ətrafına döşənmiş daşlara şimal-şərq tərəfdən bitişik işlənmişdir. Ətrafına 2,8x1,4 m daş döşənmişdir. Örtük daşları saxlanmamışdır. Qurbangahın kamerasının uzunluğu 1,05x0,85 m, eni 0,68x0,65 m, dərinliyi 0,4 m-dir. Kamerada çəhrayı gilli bir ədəd tək qulplu qab, boşqablar, oturacağında deşiyi olan çölməyin alt hissəsi, silindrik oturacaqlı altlığın fraqmentləri, tuncdan hazırlanmış üzük və qolbaq fraqmentləri aşkar edildi.

10N-li sərdabənin ətrafına 3,8x3,6 m daş döşənmişdir. Örtük daşlarından 6 ədədi saxlanmışdır. Qəbrin uzunluğu 2,7 m, eni 1,15 m, dərinliyi 0,9 m-dir. Qarət olunmuş və dağıdılmışdır. Kameraya dolmuş torpağın içərisindən sumuk qalıqları və avadanlıq aşkar edilirdi. Qəbirdən bir ədəd sarı gilli suddan biçimli qab, çəhrayı gilli, düz boğazlı, kiçik həcmli qab, iki qulplu, şar gövdəli qab, boz və çəhrayı gilli qab fraqmentləri, tuncdan qolbağ fraqmentləri, əqiq muncuqlu sırğa, gümüş üzük, əqiq, balıqqulağı və müxtəlif minerallardan hazırlanmış muncuqlar tapıldı.

10N-li sərdabənin qurbangahı (10A) qəbrə qərb tərəfdən bitişik işlənmiş, ətrafına 2,4x1,8m daş döşənmişdir. Kameranın uzunluğu 1,7m, eni 1,13 m, dərinliyi 0,55 m-dir. Örtük daşlarından üçü saxlanmışdır, onlardan ikisinin bir tərəfi qəbrin içərisinə düşmüşdür, biri yerindədir. Kameranın divarları üfüqi düzülmüş daşlarla 5-6 qat işlənmişdir. Qarət olunmuş və dağıdılmışdır. Avadanlıq müxtəlif dərinlikdə torpağa qarışmış şəkildə tapılır. Gil qabların böyük əksəriyyəti qara-boz gilli, bir qismi isə çəhrayı gillidir. Qurbangahdan konusvari oturacaqlı, divarında iki deşiyi olan vaza, bir ədəd dərin, bir ədəd dayaz boşqab, dabanlı oturacağa malik bokal, bir ədəd üzərində çərtmə naxışları olan şar gövdəli çölmək, dar boğazlı küpələr, üç çaynik tipli

qabdan fraqmentlər, çəhrayı gilli, şar gövdəli, iki qulplu qab, üzərində dalğalı və düz xətlərlə naxışları olan dar boğazlı küpə, tunc qolbaq fraqmentləri və əqiq muncuqlu tunc sırğa aşkar edildi.

11N-li sərdabənin ətrafına 4,2x3,8 m daş döşənmişdir. Qəbrin örtük daşlarından ikisi saxlanmış, lakin hər ikisi ortadan qırılmış və qəbrin içərisinə tərəf əyilmişdir. Sərdabənin kamerasının uzunluğu 1,9 m, eni 1,2 m, dərinliyi isə 1,3 m-dir. Kamera üfüqi qoyulmuş daşlarla 6-7 qat işlənmişdir. Qarət olunmuş və dağıdılmışdır, lakin kameradan müxtəlif dərinlikdə skeletlərin aşkar olunması birinci dəfə dağıntıya məruz qaldıqdan sonra qəbirdən təkrar istifadə olunduğunu göstərir. 0,6 m dərinlikdə iki skelet aşkar edildi. Onlardan biri yarımbükülü vəziyyətdə, başı şərq istiqamətində, üzü şimala tərəf dəfn edilmişdir. Skeletin yuxarı hissəsi iki sal daşın üzərindədir. İkinci skeletdən kəllə sümüyünün bir hissəsi, çanaq sümükləri, aşağı və yuxarı ətrafın lülə sümükləri saxlanmışdır. Skeletlərlə bir səviyyədə avadanlıq tapılmadı. Bu skeletlərdən 15-20 sm dərində bir-birinə qarışmış insan sümükləri aşkar edildi. Kameraya dolmuş torpağın içərisindən çoxlu miqdarda gil qab fraqmentləri, şimal-şərq küncündə çəhrayı gilli, şar gövdəli, üzün boğazlı küpə, onun yanında tunc sırğa, tunc zəncir, dəmir əşya fraqmentləri və bir neçə ədəd muncuq tapıldı.

11N-li sərdabənin qurbangahı (11A) qəbrin şimal-şərqində yerləşir. 1,0x0,96 m ölçülərində, 0,6 m dərinliyində olub təqribən kvadrat fomasındadır. Üstü dörd ədəd ensiz, uzun sal daşla örtülmüşdür. Kameraya dolmuş torpağın içərisindən gil qab fraqmentləri və osteoloji qalıqlar bir-birinə qarışmış şəkildə tapılırdı. Görünür qurbangahın kamerasından ikinci dəfə qəbir kimi istifadə olunmuşdur. Qurbangahdan kəsikdə dairəvi və dördkünc olan tunc qolbaqlar, bəzilərinin üzəri dilikli, bəzilərinə isə əqiq muncuq taxilmiş tunc həlqələr, spiralvari asma bəzəklər, tunc məftilə düzülmüş sırğalar, ilgəkli düymə, əqiqdən, pastadan və sümükdən hazırlanmış muncuqlar aşkar edildi.

12N-li sərdabənin ətrafına 2,7x2,2 m daş döşənmişdir. Dördbucaqlı planda olub uzunluğu 2,0 m, eni 1,6 m, dərinliyi isə 0,8 m-dir. Qəbrin örtük daşlarından ikisi salamat qalmışdır. Şərq tərəfdən uzunluğu 0,9 m, eni 0,45 m, dərinliyi isə 0,35 m-dir, içərisi daşla doldurulmuşdur. Qarət olunmuş və dağıdılmışdır. Kameranın içərisində, 20-30 sm dərinlikdə çoxlu gil qab qırıqları, 45 sm dərinlikdə isə insan skeletinin qalıqları aşkar edilirdi. 12N-li sərdabədən çəhrayı gilli qab fraqment-

ləri, bütün boşqab və bir ədəd şişman gövdəli, ağzının kənarında deşikli yapması olan qab tapıldı. Keramikadan başqa qəbirdən tunc qolbaq, sırğa və tunc məftil fraqmentləri, yarımşar formalı, diametri 0,6 sm, arxasında tunc məftillə kənarları diaqonal şəkildə birləşən 17 ədəd tunc düymə, 74 ədəd əqiq, iki ədəd mərmərdən dqrdbucaqlı formada, üzərində cızma üsulu ilə konsentrik dairələr olan və 199 ədəd balıqqulağı və pastadan muncuqlar aşkar edildi.

12N-li sərdabənin qurbangahı (12A) qəbirdən şərq tərəfdə yerləşir, ətrafına 2,3x1,4 m daş döşənmişdir. Qurbangahın uzunluğu 1,5 m, eni 1,0 m, dərinliyi isə 0,5 m-dir. Örtük daşlarından salamat qalmış biri sınmış və kameranın içərisinə düşmüşdür. Qurbangahdan üç ədəd tunc qolbaq fraqmentləri, tunc məftil qırıqları, bir neçə əqiq və balıqqulağı muncuqlar aşkar edildi.

13N-li sərdabənin ətrafına 3,9x3,3 m daş döşənmişdir. Örtük daşları saxlanmamışdır, uzunluğu 1,8 m, eni 1,2 m, dərinliyi isə 1,29 m idi. Qəbrin şərq divarının cənub tərəfində uzunluğu 0,9 m, eni 0,6 m, dərinliyi 0,8 m olan giriş yolu vardır. Divarları 7-8 qat daşla hörülmüşdür. Qəbir qarət olunmuş və dağıdılmışdır. Kamerada torpağın içərisindən iki skeletin kəllə sümükləri. ətraf sümükləri, keramika və bəzək əşyaları aşkar edildi. Gil qablar içərisində bir ədəd dar boğazlı, ağzı xaricə açılan küpə, bir ədəd şar gövdəli, tək qulplu küpə, bir ədəd ağzı azca kənara açılan, şar gövdəli çölmək və boşqab, bokal və altlıq fraqmentləri diqqəti cəlb edir. Qəbirdə gil qablarla yanaşı 580 və 530 qr-lıq, üzərində şam budağına bənzər ornamenti olan qolbaqlar, bir ədəd bütün tökmə üsulu ilə hazırlanmış, baş tərəfi həlqəvarı olan yastı dəstəkli xəncər, bir tərəfində ilgəyi olan çəki daşı, çəkisi 76,2 qr olan cam, beş ədəd tunc qolbaq, üstündə zəncir fraqmentləri qalmış baş sancaqları, iki tunc sırğa fraqmentləri, yarımşar formalı, diametri 0,7sm, arxasında ilgəyi olan iki düymə, 7 ədəd tuncdan, bir ədəd sürmədən (18,3 qr) və müxtəlif minerallardan hazırlanmış muncuqlar aşkar edildi.

13N-li sərdabənin qurbangahı (13A) qəbrin şimal-şərq tərəfində, giriş yolunun qarşısında yerləşir. Uzunluğu 1,3 m, eni 1,0 m, dərinliyi isə 0,6 m-dir. Örtük daşlarından biri salamat qalmışdır. Qurbangahdan gil qab fraqmentləri və bir neçə ədəd muncuq tapıldı.

14N-li sərdabənin ətrafına 2,9x2,9 m daş döşənmişdir. Örtük daşları saxlanmamışdır. Qarət olunmuş və dağıdılmışdır. Kameradan

müxtəlif dərinlikdə torpağa qarışmış şəkildə keramika və bəzək əşyaları tapılırdı. Gil qablar bir ədəd çəhrayı gilli, deşikli yapma bəzəyi olan qab, bir ədəd yoğun qulplu kasa, bir ədəd düz divarlı duz qabından ibarət idi. Gil qablarla yanaşı qırağı didikli, üzəri naxışlı və arxasında ilgəkli tunc düymə, daha bir ədəd ilgəkli sadə düymə, bir ədəd arxasında kənarları ilgək əvəzi düz məftillə birləşən düymə, eni 0,8 sm olan yastı tunc təbəqədən hazırlanmış üzük, qolbaq və zəncir fraqmentləri, 2 ədəd tuncdan hazırlanmış, 51 ədəd əqiq, 38 ədəd balıqqulağı və 22 ədəd qara rəngli mineraldan hazırlanmış muncuqlar aşkar edildi.

14N-li sərdabənin qurbangahı (14A) qəbrin cənub-qərb tərəfindədir. Uzunluğu 1,05 m, eni 0,85 m, dərinliyi 0,7 m-dir. Örtük daşları saxlanmamışdır. Qurbangahdan çəhrayı və boz gilli qab fraqmentləri, tunc əşya qalıqları və bir neçə muncuq aşkar edildi.

15N-li sərdabənin ölçüləri 2,95-2,80x1,50x1,15m, dərinliyi 0,75 m-dir. Örtük daşlarından üçü saxlanmışdır. Qarət olunmuşdur. Qəbrə dolmuş torpağın içərisindən bir ədəd çəhrayı gilli, şar govdəli, tək qulplu qab, bir ədəd çömçə formasında qab, müxtəlif gil qab fraqmentləri, tunc üzük, tunc düymə, 10 ədəd əqiq, 11 ədəd balıqqulağı və çoxlu ağ rəngli kiçik muncuqlar aşkar edildi.

15N-li sərdabənin qurbangahının (15A) uzunluğu 0,85 m, eni 0,65m, dərinliyi 0,5 m-dir, sərdabənin qərb tərəfində yerləşir. Örtük daşlarından ikisi saxlanmışdır. Divarları dikinə qoyulmuş daşlardan qurulmuşdur. Qurbangahdan çəhrayı gilli, dəyirmi gövdəli, geniş ağızlı, oturacağlnda 1,5 sm diametrində deşiyi olan çölmək, 4 ədəd oval və düz divarlı boşqab, silindrik ayaqlı dərin vaza, şar gövdəli, uzun boğazlı tək qulplu küpə, silindrik formalı vazanın oturacaq hissəsi, tək qulplu, şar gövdəli, ağzı xaricə açılan küp və tək qulplu qabın fraqmentləri aşkar edildi.

16N-li sərdabənin ətrafına daş döşənmişdir, örtük daşlarından üçü salamat qalmışdır. Qəbir ən azı iki dəfə qarət olunmuşdur. İkinci qarət çox sonralar (ola bilsin ki, orta əsrlər dövründə) baş verdiyindən ölülərin anatomik vəziyyəti pozulmuş, sümüklər və avadanlıq torpağa qarışmışdır. Qəbrin uzunluğu 1,7 m, eni 1,45 m, dərinliyi isə 1,0 m-dir. Divarları 7-8 qat daşla hörülmüşdür. Qəbirdən çəhrayı gilli, boz gilli və bəzilərinin də üzərində qırmızı boya ilə zolaqları olan cəmi

208 gil qab fraqmenti, 32 ədəd əqiqdən, 49 ədəd balıqqulağından hazırlanmış muncuqlar və dəvəgözü daşının qəlpələri aşkar edildi.

17N-li sərdabənin ətrafına 3,9x2,8 m daş döşənmişdir. Örtük daşları saxlanmamışdır, uzunluğu 1,6 m, eni 1,3 m, dərinliyi 1,1 m-dir. Cənub divarının şərq tərəfində uzunluğu 0,5 m, eni 0,45 m, dərinliyi isə 0,5 m olan giriş yolu vardır. Qarət olunmuş və dağıdılmışdır. Qəbirdən müxtəlif gil qab fraqmentləri, ucları birləşməyən iki tunc qolbaq, tunc məftildən hazırlanmış sırğa, 3,3 sm diametrində ilgəkli düymə, tunc məftil fraqmentləri və bir neçə muncuq aşkar edildi.

17N-li sərdabənin qurbangahı (17A) qəbrin giriş yolunun qarşısında yerləşir, ətrafına 2,0x1,9 m daş döşənmişdir. Örtük daşları saxlanmamışdır. Kvadrat formasındadır (1,0x1,0m), dərinliyi 0,7 m-dir. Qurbangahdan oval formalı boşqab, tək qulplu. Şar gövdəli, silindrik boğazlı küpə, şar gövdəli, tək qulplu küpə, silindrik oturacaqlı dərin vaza, boz gilli və oval formalı, deşikli yapması olan boşqab aşkar edildi.

18N-li sərdabə dördbucaqlı formadadır (1,6x1,5 m), dərinliyi 1,15m-dir, cənub-şərq küncündə kvadrat formalı (0,5x0,5 m), dərinliyi 0,6 m olan giriş yolu vardır. Örtük daşları saxlanmamışdır, qəbir qarət olunmuşdur. Kameraya dolmuş torpağın içərisindən 128 ədəd çəhrayı və boz gilli qab fraqmentləri, dəvəgözü daşı fraqmentləri, tunc məftil qırıqları və bir neçə muncuq aşkar edildi.

18N-li sərdabənin qurbangahının ətrafına (18A) 1,7x1,4 m daş döşənmişdir, kamerasının uzunluğu 1,0 m, eni 0,9 m, dərinliyi isə 0,85 sm-dir, şimal divarı 5 qat üfüqi düzülmüş daşlarla, qalan divarları dikinə qoyulmuş sal daşlarla işlənmişdir. Qurbangahdan bir ədəd üstü duz, alçaq divarlı üçayaqlı altlıq, alçaq dabanlı, yarımsferik gövdəli, yapma bəzəyi olan vaza, tək qulplu, şar gövdəli, silindrik formalı oturacağının aşağısı genişlənən bokal, dəyirmi gövdəli, ağzı xaricə açılan küpə, dar boğazlı, şar gövdəli küpə, çaynik tipli qab, iki ədəd hundur, silindrik formalı oturacağı olan vaza, silindrik oturacaqlı dayaz vaza, iki boşqab, geniş ağızlı, oturacağında 1,5 sm diametrində deşiyi olan çölmək, iki ədəd yarımşar formalı boşqab, bir ədəd oval govdəli, kiçik həcmli qab, düz divarlı qabın fraqmenti və uzunluğu 12sm olan tunc sancaq aşkar edildi.

19N-li sərdabə şərq-qərb istiqamətində olub uzunluğu 1,9 m, eni 1,35-1,45 m, dərinliyi isə 0,85 m-dir. Şərq divarının ortasında 0,4 m enində qapı yeri qoyulmuş, onun qarşısında isə 0,8 m uzunluğu və

0,55 m dərinliyi olan giriş yolu işlənmişdir. Örtük daşları saxlanmamışdır. Qəbir qarət olunmuş və dağıdılmışdır. Kameraya dolmuş torpağın içərisindən muxtəlif gil qab fraqmentləri, aşıq sumuyu, əqiqdən hazırlanmış 108 ədəd və sürmədən hazırlanmış 5 ədəd muncuq və dəvəgözü daşının qəlpələri aşkar edildi.

19N-li sərdabənin qurbangahı (19A) sərdabənin şərq tərəfindədir. Uzunluğu 1,2 m, eni 1,0 m, dərinliyi 0,7 m-dir. Örtük daşlarından ikisi saxlanmışdır. Qurbangahda bir ədəd boşqab, bir ədəd şar gövdəli, tək qulplu bokal, 94 ədəd müxtəlif qab fraqmentləri, iki ədəd tunc bilərzik və üç ədəd tunc üzük aşkar edildi.

20N-li sərdabə dördbucaqlı olanda olub uzunluğu 2,6 m, eni 1,5m, dərinliyi 0,95 m-dir. Sərdabənin şimal-qərb divarında 0,5 m enində qapı yeri qoyulmuşdur. Qapı yerinin qarşısında yerləşən giriş yolu dağıdılmışdır. Qəbrin örtük daşları yoxdur, qarət olunmuşdur. Kameraya dolmuş torpağın içərisindən 194 ədəd gil qab fraqmenti, bir ədəd boz gilli, şar gövdəli, ağzı azca kənara açılmış və çiyin hissəsində parallel cızma xətlər olan qab, üç ədəd tunc qolbaq, tunc üzük, nazik tunc məftil fraqmentləri, 3 ədəd tuncdan hazırlanmış, 108 ədəd əqiqdən hazırlanmış, 3 ədəd travertindən hazırlanmış və balıqqulağından hazırlanmış muncuqlar aşkar edildi.

20N-li sərdabənin qurbangahı (20A) dördbucaqlı plkanda olub uzunluğu 1,3 m, eni 0,8 m, dərinliyi 0,6 m-dir, sərdabədən 0,5 m aralıda yerləşir. Örtük daşları saxlanmamışdır. Üstdən çəhrayı gilli (36 ədəd) və boz gilli (24ədəd) qab fraqmentləri aşkar edilirdi. Qurbangahın kamerasından 10 ədəd bütün qab və 54 fraqmeht aşkar edildi.

21N-li sərdabə dördbucaqlı planda olub uzunluğu 2,98 m, eni 1,46m, dərinliyi isə 0,6 m-dir. Şimal-qərb hissəsində divarının bir tərəfi dağıdılmışdır. Örtük daşları yoxdur. Kameradan müxtəlif dərinlikdə, torpağın içərisindən sümük qalıqları, çəhrayı və boz rəngli gil qab fraqmentləri, tunc qolbaq, tunc üzük, 11 sm uzunluğu olan tunc sancaq, tuncdan hazırlanmış yastı dairəvi formalı, yanları haşıyəli, ilgəkli asma bəzək və müxtəlif muncuqlar aşkar edildi.

22N-li sərdabə dördbucaqlı planda olub uzunluğu 1,9 m, eni 1,5m, dərinliyi 1,0 m-dir. Örtük daşlarından üçü saxlanmışdır. Şərq divarında 0,95x0,6 m ölçülərində üstü sal daşla örtülmüş giriş yolu vardır. Kameranın içərisindən 0,7 m dərinlikdə yeddi skeletin qalıqları və 0,9m dərinlikdə, qapıdan qərb tərəfdə bir toxunulmamış skelet aşkar

edildi. Skelet yarımbükülü vəziyyətdə, üzü qərbə tərəf, başı şimal-qərb istiqamətində idi, başının altına sal daş qoyulmuşdu. Bir qolunda tunc qolbaq, arxa tərəfində, kürək sümüyünə yaxın iki düzüm muncuq tapıldı. Muncuqlardan 54-ü balıqqulağından, 46-sı əqiqdən, 40-ı pastadan, ikisi isə travertindən hazırlanmışdır. Bundan başqa muncuq düzümlü asma bəzək də tapıldı. Skeletin kəllə sümüyü yanında üç gil qab aşkar edildi. Onlardan biri çəhrayı gilli, ağzının yanında deşiyi olan boşqab, ikincisi ağzının hər iki tərəfində deşiyi olan dərin boşqab, üçüncüsü isə şar gövdəli, dar boğazlı küpədir. Skeletdən aşağıda iki ədəd, birinin ayaqları düz dirək formasında, o birisinin ayaqları isə çəkmə formasında olan altlıq, tuncdan 12 sm uzunluğunda baş sancağı, iki tunc məftilə düzülmüş muncuqlardan ibarət sırğa, iki ədəd ücları iti tunc bilərzik, üç ədəd tunc üzük, 62 ədəd əqiq, 54 ədəd balıqqulağı və 12 ədəd sürmədən hazırlanmış muncuqlar aşkar edildi.

22N-li sərdabənin qurbangahı (22A) kvadrat planda olub (1x1 m) sərdabədən cənub-qərb tərəfdə giriş yolunun qarşısında yerləşmişdir, dərinliyi 0,5 m-dir. Örtük daşları saxlanmamışdır. Müxtəlif dərinlikdə 21 ədəd gil qab aşkar edildi ki, bunlardan da kiçik həcmli qablar geniş ağızlı qabların içərisinə qoyulmuşdu. Gil qablar içərisində ücü qatlanmış çəkmə formalı kubok, mürəkkəb profilli, ağzının kənarına bayır və içəri tərəflərindən qırmızı boya çəkilmiş boşqab, oturacağında 1,5sm diametrində deşiyi olan küpə və çaynik tipli qablar diqqəti cəlb edir.

23N-li sərdabə dördbucaqlı planda olub uzunluğu 1,55m, eni 1,15m, dərinliyi isə 0,62 m-dir. Örtük daşları saxlanmamışdır, qərb divarında 0,45x0,55 m ölçülərində giriş yolu vardır. Qəbir qarət olunmuşdur. Müxtəlif dərinlikdə qara-boz gilli qablar, 5 sm uzunluğunda yastı tunc təbəqə, diametri 1,5 sm olan iki tunc düymə, muncuq düzümlü tunc sırğa, 45 ədəd əqiq muncuq, 46 ədəd balıqqulağından hazırlanmış muncuq, 13 ədəd bir tərəfində deşiyi olan bütün balıqqulağı, bir ədəd yumru tunc muncuq və bir ədəd mineraldan hazırlanmış, üzəri pərgar naxışlı (konsentrik dairələr) muncuq aşkar edildi.

23N-li sərdabənin qurbangahı (23A) dördbucaqlı planda, uzunluğu 1,0 m, eni 0,8 m, dərinliyi 0,5 m olub ona qərb tərəfdən bitişik işlənmişdir. Örtük daşları saxlanmamışdır. Qurbangahdan bir ədəd geniş boğazlı, yastı ağızlı, oturacağında 1,5 sm diametrində deşiyi olan küpə, insan ayağı formasında, üstü düz, qıraqları 2 sm şaquli vəziyyətdə

qalxmış altlıq, dar boğazlı, ağzı azca kənara açılan küpə, düz divarlı, ağzının yanında iki deşiyi olan boşqab, kobud hazırlanmış kasa, çiyin hissəsində iki sıra basma naxışları olan çaynik tipli qab və stəkana oxşar qab aşkar edildi. Gil qablardan başqa qurbangahın şimai-qərb və cənub-qərb künclərində iki ədəd içi boş, yan tərəflərində üçbucaq kəsmələri olan quş formalı asma bəzək tapıldı.

24N-li sərdabənin uzunluğu 1,9 m, eni 1,65 m, dərinliyi 0,65 m-dir. Örtük daşlarından biri ortada sınaraq qəbrin içərisinə düşmüşdür, qalan örtük daşları saxlanmamışdır. Sərdabənin cənub-qərb küncundə 1,0x0,5 m ölçülərində giriş yolu vardır. Giriş yolunun döşəməsi qəbrin döşəməsindən 10 sm hündürdədir. Sərdabənin mərkəzində, şimal-şərq divarına yaxın sınmış örtük daşının altında bir-birinə qarışmış insan sümükləri və nizamsız şəkildə çoxlu tunc əşya-ilgəkli qabarıq düymə, ilgəkli, yanları qatlanmış düymə, 24 ədəd qabarıq, arxasında kənarları birləşdirən bir qabırğalı, diametri 0,5 sm olan düymələr, dörd ədəd yarımdairə formalı sirğa, iki ədəd muncuq düzümlü sırğa, bir ədəd meandr naxışlı muncuq düzümlü sırğa, bir ədəd balıqqulağı asılmış sırğa, 6 ədəd tunc qolbaq, nazik tunc məftildən hazırlanmış üç üzük, relyeflk naxışlı, ilgəkli medalyon, dörd ədəd baş tərəfində kəsmə naxışları olan baş sancağı, dörd ədəd başı səncirli sancağ, iki ox ucu, bütüntökmə üsulu ilə hazırlanmış, dəstəyi çərçivəli tunc xəncər aşkar edildi. Analiji formalı xəncərlər Gədəbəydən tapılmışdır. Bunlardan başqa qəbirdən çoxlu miqdarda çəhrayı, boz və qara gilli qab fraqmentləri və müxtəlif muncuqlar tapıldı.

24N-li sərdabənin qurbangahı (24A) dördbucaqlı (1,1x1,2m) planda olub dərinliyi 0,5 m-dir. Sərdabənin qərb tərəfindən 0,8 m aralıda yerləşir. Qurbangahın örtük daşlarından ikisi saxlanmışdı. Kameradan çəhrayı və qara boz gilli kupə, çolmək, vaza, boşqab və çaynik tipli qablar aşkar edildi.

25N-li sərdabənin uzunluğu 2,6 m, eni qərb tərəfdə 1,4 m, şərq tərəfdə 0,9 m, dərinliyi 0,65 m-dir. Örtük daşları saxlanmamışdır, giriş yolu yoxdur. Qəbrə dolmuş torpağın içərisindən gil qab fraqmentləri, tunc əşyalar və müxtəlif muncuqlar aşkar edildi.

25N-li sərdabənin qurbangahı dördbucaqlı planda olub uzunluğu 1,9 m, eni 1,6 m-dir. Qurbangahdan qəbir kimi istifadə olunmuşdur. Qarət olunmuş və dağıdılmlşdır. Kameraya dolmuş torpağın içərisin-

dən çox pis saxlanmış sümük qalıqları ilə birlikdə gil qab fraqmentləri, tunc əşyalar və müxtəlif muncuqlar aşkar edildi.

26N-li sərdabənin uzunluğu 1,9 m, eni 1,6 m, dərinliyi 0,83 m-dir. Örtük daşları saxlanmamışdır. Şərq divarının ortasında 0,55 m enində üzəri sal daşla örtülmüş giriş yolu vardır. Kameraya dolmuş torpağın içərisindən bir neçə skeletə məxsus sümüklər, 115 ədəd çəhrayı gilli, 63 ədəd boz gilli qab fraqmentləri, romb şəkilli ox ucu, nazik tunc qolbaq, dörd ədəd tunc düymə, zəncir fraqmentləri, bir ədəd tunc muncuq, 56 ədəd əqiq muncuq və bir ədəd ox ucu tökmək üçün gil qəlib aşkar edildi.

26N-li sərdabənin qurbangahının (26A) uzunluğu 1,27m, eni 1,0m, dərinliyi 0,42 m-dir. Qurbangah sərdabənin şərq tərəfində, giriş yolunun qarşısında yerləşir. Örtük daşları yoxdur. Qurbangahdan çəhrayı və qırmızı gilli qab fraqmentləri və iki ədəd tunc qolbaq aşkar edildi.

27N-li sərdabə kvadrat planda olub uzunluğu və eni 1,55m, dərinliyi isə 0,85 m-dir. Şərq divarına bir ədəd sal daş dikinə qoyulmuş, qalan üç divarı dağ daşı ilə 7 qat işlənmişdir. Örtük daşları saxlanmamışdır. Kameraya dolmuş torpağın içərisindən bir neçə skeletə aid sümük qalıqları, qırmızı gilli, silindrik oturacaqlı vaza, çəhrayı gilli, ucu qatlanmış çəkmə formasında olan altlığın ayaq hissəsi, boşqab fraqmentləri, tunc həlqə, tuncdan hazırlanmış ürək formalı asma bəzək, iki ədəd tunc düymə, 21 ədəd əqiq və balıqqulağından hazırlanmış muncuqlar aşkar edildi.

27N-li sərdabənin qurbangahı (27A) sərdabənin şərq tərəfində yerləşir, 1,0x1,15 m ölçülərində olub, dərinliyi 0,75 m-dir. Kameranın cənub-şərq küncündən başqa hər yerinə çəhrayı gilli qablar səliqə ilə düzülmüşdü. Gil qablar çiynində çərtmə naxışları olan çaynik tipli qabdan, on ədəd boşqabdan, şar gövdəli, ağzına yaxın iki yapma bəzəyi olan qab, yastı oturacaqlı, konus gövdəli kubokdan, çölməkdən, şar gövdəli, hundur oturacaqlı, ilgəyə oxşar iri tək qulplu qabdan, üç ayaqlı, üstü düz altlıqdan və ilgəkvari qulplu kasadan ibarətdir.

28N-li sərdabənin üstü iri həcmli sal daşlarla örtülmüşdür, şərq-qərb istiqamətindədir. Ətrafına düzülmüş daşlardan yalnız şərq tərəfdə bir neçəsi salamat qalmışdır. Şimal divarının uzunluğu 1,95m, cənub divarının uzuznluğu 2,15m, qərb divarının uzunluğu 1,4m, şərq divarının uzunluğu 1,3m, dərinliyi isə 0,75m-dir. Qəbir qarət olunmuş-

dur. Muxtəlif dərinlikdə skelet sümüklərinin qalıqları, gil qab fraqmentləri, iki ədəd tunc qolbaq, 13 ədəd arxasında ilgəyi olan tunc düymə, 55 ədəd əqiq, 7 ədəd şüşəyə oxşar, 1 ədəd travertindən, 10 ədəd balıqqulağından və 1 ədəd sümükdən hazırlanmış muncuq aşkar edildi.

28N-li sərdabənin iki qurbangahı vardır. Hər iki qurbangah sərdabədən şərq tərəfdə yerləşir.

28A-li qurbangahının uzunluğu 1,75m, eni 1,35m, dərinliyi 0,6m-dir. Divarları dikinə qoyulmuş sal daşlardan qurulmuşdur. Qurbangahdan bir ədəd çəhrayı gilli, oturacağında 1,5 sm diametrində deşiyi olan çölmək, qalın divarlı, tək qulplu kasa, boz gilli boşqab və tək qulplu, ağzının kənarı içəriyə tərəf əyilmiş kasa aşkar edildi.

28B-li qurbangahın 1,15m uzunluğunda şərq divarı və 0,75m uzunluğunda cənub divarı salamat qalmışdır, dərinliyi 0,7m-dir. Qurbangahdan boz gilli boşqab, 21 ədəd boz gilli, 9 ədəd çəhrayı gilli qab fraqmentləri, iki ədəd tunc düymə, 2 ədəd əqiq, 4 ədəd şüşəyə oxşar, 21 ədəd balıqqulağından və bir ədəd travertindən hazırlanmış muncuq aşkar edildi.

29N-li sərdabənin şərq və qərb divarlarının uzunluğu 1,6 m, şimal divarının uzunluğu 2,1m, cənub divarının uzunluğu 1,84 m, dərinliyi isə 1,0 m-dir. Cənub divarı daha bir metr uzanaraq giriş yolunun bir divarını təşkil edir. Sərdabənin giriş yolu qərb tərəfdədir, içərisi qab sınıqları ilə dolu idi. Qəbrə tərəf qapını əvəz edən daş plitə yox idi. Sərdabənin şərq və cənub divarları yanında bəzi skelet sümükləri aşkar edildi. Sərdabədən 175 ədəd çəhrayı gilli, 130 ədəd boz gilli, 2 ədəd sarı gilli və 1 ədəd qəhvəyi gilli qab fraqmenti tapıldı. Gil qablardan bəziləri cızma üsulu ilə, bəziləri isə qırmızı boya ilə naxışlanmışdır. Gil qablardan başqa qəbirdən tunc həlqə, nazik tunc məftildən hazırlanmış qolbaq, balıqqulağı və əqiq muncuqlar taxılmış tunc sırğa, göz muncuğu və bir tərəfində deşiyi olan bütün balıqqulağı muncuqlar aşkar edildi.

29N-li qəbrin qurbangahı (29A) qərb tərəfdə, sərdabənin giriş yolunun qarşısında yerləşir, uzunluğu 1,08m, eni 0,9m, dərinliyi 0,35m-dir. Qurbangahda bir ədəd tək qulplu, dar boğazlı, kobud hazırlanmış qab, çaynik tipli qab fraqmenti, ağzına yaxın iki deşiyi olan və ağzının hər iki tərəfinə qırmızı boya çəkilmiş boşqab, 200 ədəd çəhrayı gilli, 30 ədəd boz gilli qab fraqmentləri, nazik tunc məftildən düzəldilmiş

qolbaq, əqiq muncuqlu sırğanın bir hissəsi, spiralvari burulmuş tunc məftil, əqiqdən, balıqqulağından və sürmədən hazırlanmış muncuqlar aşkar edildi.

30N-li sərdabə dördbucaqlı planda olub uzunluğu 1,8m, eni 1,5m, dərinliyi isə 0,95m-dir. Qərb divarında 0,66x0,3 m ölçülərində, içərisinə çay daşları doldurulmuş və üstü sal daşla örtülmüş giriş yolu vardır. Sərdabənin içərisində hər tərəfdə, xüsusən də giriş yoluna yaxın insan sümükləri aşkar edilirdi. Avadanlıq müxtəlif dərinlikdə tapılırdı. Qəbirdən boz gilli, ağzının kənarında iki deşiyi olan və deşiklərdən birinin kənarında aypara formalı relyefik yapma bəzəkli boşqab, çəhrayı gilli, silindrik oturacaqlı, ağzının kənarında deşikli yapması olan vaza, şar gövdəli, ilgəkvari qulpu olan nkiçik həcmli qab, 103 çəhrayı gilli, 32 boz gilli qab fraqmenti aşkar edildi. Gil qablardan başqa qəbirdən 5 ədəd tunc üzük, 2 ədəd tunc bilərzik, tunc düymə, qolbaq, zəncir fraqmentləri, 37 ədəd əqiq, 5 ədəd balıqqulağı, 2 ədəd travertin və 4 ədəd bir tərəfində deşiyi olan butun balıqqulağı muncuq tapıldı.

30N-li sərdabənin qurbangahı(30A) sərdabənin giriş yolundan 0,6m aralıda yerləşir. Örtük daşları saxlanmamışdır, qərb divarının uzunluğu 1,18m, şərq divarının uzunluğu 1,02m, şimal və cənub divarlarının uzunluğu 0,95m-dir. Qurbangah qarət olunmuş və dağıdılmışdır, 30 ədəd çəhrayı və 30 ədəd boz gilli qab fraqmentləri aşkar edildi.

31N-li sərdabə dördbucaqlı plandadır, uzunluğu 1,44m, eni 1,35m, dərinliyi 0,64 m-dir. Örtük daşları saxlanmamışdır. Şərq divarının ortasında 0,5x0,88 m ölçülərində və 0,48 m dərinliyində giriş yolu vardır. Sərdabə qarət olunmuş və içərisindəki skeletlər və avadanlıq dağıdılmışdır. Qəbirdən çəhrayı gilli, şar gövdəli, yastı oturacaqlı, üzəri cərtmə naxışlı çölmək, üçayaqlı altlığın insan ayağı formasında hazırlanmış ayağından fraqment, düz divarlı stıkana oxşar qab, maili divarlı üç boşqab, konusvari oturacaqlı, üstü düz altlıq, boz gilli, şar gövdəli, tək qulplu, konusvari oturacağa malik qab, üç boşqab, 43 çəhrayı gilli, 35 boz gilli qab fraqmenti, iki tunc üzük, balıqqulağı taxılmış tunc sırğa, tunc qolbaq, asma bəzək, qolbaq fraqmentləri, 39 ədəd pastadan hazırlanmış yumru muncuqlar, 15 ədəd şüşəyəbənzər muncuq, bir ədəd silindrik formalı, üzərində şam ağacı yarpaqları formasında cızma naxışları olan muncuq, 3 ədəd əqiq, bir ədəd yaqut,

balıqqulağı və müxtəlif minerallardan hazırlanmış muncuqlar aşkar edildi.

31N-li qəbrin qurbangahı (31A) şərq tərəfdən sərdabənin giriş yolunun qarşısında yerləşir. Uzunluğu 1,0 m, eni 0,78 m, dərinliyi isə 0,55 m-dir. Örtük daşları saxlanmamışdır. Qurbangahdan bir ədəd şar gövdəli, oturacağında deşik olan geniş ağızlı qab, bir ədəd sferokonus gövdəli, ağzı içəriyə əyilmiş qab, iki ədəd ağzının kənarında iki deşiyi olan dərin boşqablar və bir ədəd qara gilli, şar gövdəli, qıfa oxşar ağzı olan qab aşkar edildi.

32N-li sərdabə dördbucaqlı planda olub uzunluğu 2,7 m, eni 1,5 m, dərinliyi 0,62 m-dir. Giriş yolu yoxdur. Örtük daşları saxlanmamışdır. Qəbir qarət olunmuş və dağıdılmışdır. Muxtəlif dərinlikdə 9 kəllə sümüyü və skeletə məxsus digər sümüklər aşkar edildi. Qəbirdəki çəhrayı gilli və boz gilli qabların hamısı fraqmentlər şəklində əldə edildi. Gil qablardan başqa qəbirdən 63 ədəd əqiq muncuq, 35 ədəd sürmədən hazırlanmış muncuq, üç ədəd tunc qolbaq, üç ədəd tunc üzük, arxasında ilgəyi olan düymələr, balıqqulağı və əqiq muncuqlar düzülmüş tunc sırğalar, tunc qolbaq, zəncir, təbəqə fraqmentləri və dəvəgözü daşı qəlpələri aşkar edildi.

32N-li sərdabənin qurbangahı(32A) sərdabənin qərb tərəfindədir. Örtük daşları saxlanmamışdır. Şimal divarının uzunluğu 0,9 m, qalan divarlarının uzunluğu 0,73 m, dərinliyi 0,4 m-dir. Qurbangahın içərisinə 14 ədəd qab düzülmüşdü. Bunlar əsasən küpə, çölmək, boşqab, və çaynik tipli qablardan ibarət idi. Gil qablardan başqa qurbangahın şimal divarı yanında iki ədəd tunc bilərzik, muncuq düzümlü tunc sırğa, tunc düymə və iki ədəd əqiq muncuq tapıldı.

33N-li sərdabənin uzunluğu 1,8 m, eni 1,4 m, dərinliyi 0,7 m-dir. Şərq tərəfində 0,7 m eni, 0,5 m uzunluğu və 0,6 m dərinliyi olan giriş yolu vardır. Örtük daşları saxlanmamışdır. Kamerada 0,4 m dərinlikdən başlayaraq 9 ədəd insan kəlləsi və skelet sümükləri qarışmış şəkildə, muxtəlif formalı çəhrayı və boz gilli qab fraqmentləri, 5 ədəd tunc üzük, 4 ədəd tunc düymə, çəki daşı formasında asma bəzək, balıqqulağı və əqiq muncuqlar düzülmüş 5 ədəd tunc sırğa, tunc zəncir fraqmentləri, 17 ədəd tuncdan hazırlanmış muncuq, sürmədən düzəldilmiş üçbucaq formalı asma bəzək, əqiqdən, travertindən, pastadan və balıqqulağından hazırlanmış muncuqlar aşkar edildi.

33N-li sərdabənin qurbangahı(33A) sərdabənin giriş yolunun qarşısında azca şimala tərəf meyilli yerləşmişdir. Örtük daşları saxlanmamışdır, uzunluğu 1,65m, eni 1,1m, dərinliyi 0,5m-dir. Qurbangahdan bir ədəd formasını itirmiş qolbaq, bir ədəd boz gilli çəkmə formasında, qatlanmış ucunda 5 cızma xətti olan, gövdəsi yuxarıya tərəf genişlənən qab, bir ədəd şar gövdəli, uzun boğazlı küpə, ağzının kənarında iki deşiyi olan boşqab fraqmenti, bir ədə şar gövdəli çölmək, iki ədəd ağzının yanında deşiyi olan və dörd ədəd boz gilli, ağzının yanında deşikli yapması olan boşqab aşkar edildi.

Tədqiqatlar göstərdi ki, Muncuqlqtəpə nekropolunun sərdabələri həm quruluşuna, həm də materialına görə bölgənin digər həmdövr nekropollarından fərqlənir. Qəbirlər müxtəlif həcmli dağ daşları ilə səliqəli işlənmiş, üstləri sal daşlarla örtülmüşdür. Kameraların ətrafında 1,5 m-ə qədər sahəyə sal daşlar döşənmişdir. Uzunluğu 3 m-ə (№15), eni 1,6 m-ə (№24) çatan sərdabələr vardır. Dərinlikləri 1,3 m-ə qədərdir. İçərisində 12-yə qədər skelet qalıqlarının aşkar edildiyi sərdabələr də vardır.

Muncuqlutəpə qəbirləri quruluşuna görə üç hissədən ibarətdir: Qəbrin kamerası, giriş yolu və ayrıca işlənmiş qurbangah.

Giriş yolu qəbrin kamerasına qərb və ya şərq tərəfdən daşla işlənmiş, üstü sal daşlarla örtülmüşdür. Onların daş düzülmüş döşəməsinin səviyyəsi qəbir kameralarının döşəməsinə nisbətən hündürdədir. Qəbrin kamerasına giriş yolu dikinə qoyulmuş bir ədəd sal daşla örtülmüşdür ki, bu da növbəti dəfn zamanı qəbrin kamerasına daxil olmağı asanlaşdırırdı.

Sərdabələrin daş örtükdən yuxarı hissəsi salamat qalmadığından qəbirlərın yerüstü hissəsinin hansı formada qurulduğunu söyləmək çətindir. Lakin, kameranın ətrafındakı daşların düzülüşü, qəbrin üstünə örtük daşlarından başqa da müəyyən hündürlükdə daş və ya torpaq töküldüyünü ehtimal etməyə əsas verir.

Nekropoldakı sərdabələrin hamısı az və ya çox dərəcədə qarət olunduğundan skeletlər anatomik vəziyyətləri pozulmuş və kameranın içərisinə səpələnmiş vəziyyətdə aşkar edilirdi. Bunun bir səbəbi də növbəti dəfn zamanı əvvəlki skeletlərin arxa tərəfə itələnməsi olmuşdur. Təsadüfən toxunulmamış bir neçə skeletin vəziyyətinə görə, dəfn olunanların qəbrə bükülü vəziyyətdə yanı üstdə qoyulduğu müəyyən olunmuşdur. Arxeoloji qazıntılar bir maraqlı faktı aydınlaşdırdı. Qə-

dim qarətçilərin diqqətini ancaq qəbirlər cəlb etmiş, onlar qurbangahlara toxunmamışlar. Ona görə də qazıntı zamanı toxunulmamış qurbangahlara daha çox təsadüf edilir.

Bizim eradan əvvəl III-II minilliklərdə qəbirlərə bitişik işlənən qurbangahlardan fərqli olaraq Muncuqlutəpə sərdabələrinin qurbangahları qəbrin giriş yolunun qarşısında ayrıca işlənmişdir. Qurbangahlar dördbucaqlı, kvadrat və dairəvi planda qurulmuşdur. Muncuqlutəpə nekropolunda bir neçə toxunulmamış (in situ) qurbangah aşkar edilmişdir. Bu qurbangahlara süfrə qablarının bütün dəsti (28 ədəd gil qab) qoyulmuşdur (10,tab.LX,şək.2). Qurbangahlarda çox təsadüfi hallarda bəzək əşyalarına rast gəlmək olur.

Qurbangahlardakı gil qablara ehtimal ki, bitki mənşəli quru və duru ərzaqlar qoyulmuşdu. Belə ki, indiyədək gil qablarda nə bir heyvan, nə də quş sümüyü aşkar edilməmişdir. Buna baxmayaraq bir qabda aşkar edilmiş gil qoyun fiqurları qurbankəsmə adətinin məcazi mənada yerinə yetirildiyini söyləməyə əsas verir. Muncuqlutəpədə rast gəlinən dəfn adətinin bir cəhətini xüsusilə qeyd etmək lazımdır. Belə ki, sərdabələrin kameralarına hər dəfə təzə ölü basdırarkən onun yanına yeni gil qablar qoyulurdusa, bu zaman qurbangahlara ya toxunulmurdu, ya da qurbangahlardakı gil qablar oradan götürülür, təmizlənib ərzaqla doldurulduqdan sonra yenidən qurbangaha qoyulurdu.

Bir qurbangahın kamerası ikiyə bölünmüş və hər iki hissəyə eyni qablardan düzülmüşdür. Bu qurbangah ehtimal ki, iki nəfərin bir vaxtda öldüyü zaman qurulmuşdur.

Qurbangahlar üçün dibində deşiyi olan bir ədəd küp, «çaynik» tipli, lüləyə oxşar axırımı olan qab, konus formalı ayağı olan vaza, üstü düz üçayaq altlıq, müxtəlif kasalar, boşqablar və kuboklar xarakterik hesab olunur. Bir sıra boşqab və kasaların ağzının kənarında və ya çiynində şaquli və ya üfiqi vəziyyətdə yerləşmiş deşiyi olan qulp əvəzi yapmalar vardır.

Qurbangahlarda aşkar edilmiş qabların böyük əksəriyyəti texniki qüsurlarla, əyri və səliqəsiz hazırlanmışdır. Bəzi qabların qulp əvəzi qulaqcıqlarına, bəzi «çaynik» tipli qabların isə axırımına deşik açılmamışdır. Bu qablar odda pis bişirilmiş, az bir qismi naxışlanmışdır. Ümumiyyətlə, Muncuqlutəpə keramikasını təhlil edərkən belə bir təsəvvür yaranır ki, qurbangahlara qoyulan gil qablar xüsusi olaraq dəfn üçün hazırlanırmış.

Bunlardan fərqli olaraq qəbrə, ölünün yanına qoyulan qablar keyfiyyətlə hazırlanmış və bir çoxunun üzəri oyma üsulu ilə naxışlanmış, bəzilərinin üzərinə isə qırmızı boya ilə həndəsi ornamentlər salınmışdır.

Sərdabələrdən aşkar edilmiş metal əşyalar əsasən tuncdan hazırlanmış qolbaqlardan, üzüklərdən, sancaqlardan, sırğalardan, arxasında həlqəsi olan müxtəlif formalı düymələrdən və silahlardan ibarətdir. Muncuqlutəpə qəbirlərindən cəmi iki xəncər, beş ox ucu, tunc zəncirdən asılan dəmirdən hazırlanmış bəzək əşyası, bir ədəd küplü nizə ucu, bıçaq fraqmentləri və bəzən formasını müəyyənləşdirmək mümkün olmayan dəmir parçaları aşkar edilmişdir. Tunc materiallardan başqa Muncuqlutəpə nekropolunda gümüş, sürmə və dəmirdən hazırlanmış əşyalara da rast gəlinir. Dəmirdən silah və əmək alətlərinin hazırlanmasına e.ə. II minilliyin ortalarından başlasa da ondan geniş miqyasda istifadə olunmasına e.ə. I minilliyin ortalarından başlanmışdır. Müəyyən olunmuşdur ki, bunun əsas səbəbi Xett dövlətinin dəmir üzərindəki "monopoliyası" deyil dəmir məmulatının tunca nisbətən aşağı keyfiyyətdə olması idi. Lakin keyfiyyətli tuncun hazırlanması üçün qalayın çatışmaması dəmir istehsalını zəruri edirdi. İran və Cənubi Qafqaz ərazilərində qalay yataqları olmadığından onu çox uzaqdan gətirirdilər (4,s.67-68). Yadellilərin işğalı zamanı ələ keçirilən mallar içərisində qalayın adının nadir hallarda çəkilməsi (5,s.87-93) də onun bu ərazilərdə olmadığını bir daha sübut edir. Qalayın olmaması tunc istehsalında sürmədən, qurğuşundan və çinkdən istifadəni şərtləndirirdi. Yeni Babil sənədlərində göstərilir ki, hətta e.ə. VI əsrdə də nizələrin yayısı tuncdan hazırlanırdı (3,s.288).

Muncuqlutəpədən tapılan e.ə. IX-VIII əsrlərə aid ox ucları Cənubi Qafqaz tipinə məxsusdur (2.s.28.tab.XIII,XV). 33N-li qəbirdə aşkar edilmiş ox ucu İran abidələrindən tapılmış ox uclarına yaxındır (6.s.26; 8, s. 14). Naxçıvan ərazisində Muncuqlutəpə ox uclarının oxşarları Şahtaxtından tapılmışdır. Qalay catışmadığından Naxçıvan ərazisində onon əvəzedicisi olan sürmədən istifadə olunurdu.Xalis sürmədən tökmə üsulu ilə hazırlanmış bəzək əşyalarına da rast gəlinir. Xalis qalaydan hazırlanmış 7 muncuqdab birinin çəkisi 18,3 qr, qalanlarının çəkisi isə 0,34 qr-dan 2,3 qr-a qədərdir. Spektral analiz göstərir ki, bu muncuqların tərkibində aşkar edilən cüzi təbii qatışıqlar da filizin tərkibində olmuşdur. Naxçıvan bölgəsində zəngin sürmə yataqları

vardır. Yaxın Şərq ölkələrini sürmə ilə təchiz edən mənbələrdən birinin burada olmasını da ehtimal etmək olar.

Sərdabələrdən külli miqdarda əqiq, pasta, travertin, sürmə və tuncdan hazırlanmış muncuqlar tapılmışdır.

Tuncdan hazırlanmış bəzək əşyaları içərisində dairəvi formada, şəbəkəli və asmaq üçün halqası olan amuleti və quş fiqurlarını xüsusilə qeyd etmək lazımdır. Hələ tunc dövründən məlum olan bu bəzək əşyaları e.ə. I minilliyin əvvəllərində Cənubi Qafqazda geniş yayılmışdı. Quş fiqurları göyün rəmzi hesab olunur və kult xarakterli əşya sayılırdı (7, s.117-118).

Muncuqlutəpədən tapılan yeganə fibula ilgəkli fibulalar qrupuna aiddir. Bu tip fibulalar Cənubi Qafqazın şimal-qərbində, İranda və Xəzər dənizinin cənub-şərq vilayətlərində e.ə. VIII əsrin sonlarındanbaşlayaraq e.ə. VII əsrdə daha geniş yayılmışdı. Muncuqlutəpədə 8N-li qəbirdən tapılmış fibula Karmirblurda Urartu çarı Rusun(730-714-cü illər) dövrünə aid materiallar içərisindəki fibulaya və VII-VI əsrlərə aid III Həsənli dövrünə aid fibulaya oxşardır. Fibulalar abidənin dövrünün müəyyən edilməsi ilə yanaşı onun etnik mənsubiyyəti haqqında da müəyyən fikirlər söyləməyə imkan verir. Lakin Muncuqlutəpədən tapılan fibula yeganə ilgəkli fibuladır və buraya müxtəlif səbəblərdən düşə bilər. Ona görə də abidənin etnik mənsubiyyəti kimi mühüm problemi bir tapıntı ilə həll etmək olmaz.

Gümüşdən hazırlanmış cəmi iki həlqəvari üzük aşkar edilmişdir. Bəzək əşyaları içərisində əqiqdən hazırlanmış muncuqlar çoxluq təşkil edir. Onların əksəriyyəti kobud hazırlansa da, içərisində yaxşı hamarlanmış nümunələr də vardır.

Ağ daşdan hazırlanmış muncuqlar içərisində yastı, dördbucaqlı formada, üzərində bucaqlara yaxın oyma üsulu ilə konsentrik dairələr şəklində naxışları olan muncuqları xüsusi qeyd etmək lazımdır. Belə muncuqlar ən çox Trialetidə (e.ə.VII-VI əsrlər) aşkar edilmişdir.

Muncuqlarla birlikdə sərdabələrdə silindrik formalı möhürlər də tapılmışdır. Bunlardan ikisi ağ rəngli yumşaq daşdan hazırlanmış üzəri şam ağacı formasında oyma üsulu ilə naxışlanmışdır. Birinin üzərinə açıq qəhvəyi fonda dörd cərdə konsentrik dairələr və ortasında nöqtə olan dairələr oyma üsulu ilə elə salınmışdır ki, nəticədə açıq qəhvəyi fonda ağ rəngdə ornament alınmışdır. Təsvir aydın deyil. Belə silindrik möhürlər Mərlik abidəsindən məlumdur.

Keramika məmulatı öz ənənəvi formasını saxlasa da boya ilə naxışlama tamamilə aradan çıxır. Qabların yalnız ağzının kənarında və bəzən də qulplarında boya ilə çəkilmiş zolaqlara rast gəlinir. Muncuqlutəpənin çaynik tipli qabları içərisində lülənin qabın ağzının kənarı ilə körpü kimi birləşdiyi qablar IV Həsənli dövrü ilə uzlaşır. Boşqablar içərisində ağzına yaxın iki deşiyi və qövsvari yapma bəzəyi olan qabların oxşarlarına Göytəpənin B təbəqəsindəki K qəbrində (4. tab.34.ris.22) və Dingətəpənin 12 saylı qəbrində rast gəlinir. Muncuqlutəpə keramikası öz formasına görə IV Həsənli və II Dingətəpə keramikası ilə çox oxşardır.

Ümumiyyətlə, Muncuqlutəpə nekropolu tapıntılarına analoji materiallara ən çox Urmiya gölü hövzəsi abidələrində və Şərqi Anadoluda (Qaraqunduz nekropolu) (9. s.27-48) rast gəlinir.

V.Baxşəliyev nekropolda dəmirdən hazırlanmış materialların az olmasını əsas götürərək Muncuqlutəpənin e.ə. IX əsrə aid olduğu ehtimalını irəli sürmüş və Xocalı-Gədəbəy mədəniyyətinin Cənubi Azərbaycan ərazilərinə qədər yayıldığını qeyd etmişdir (1, s.35-37). Əldə edilən arxeoloji tapıntıların müqayisəli təhlili Muncuqlutəpə nekropolunu e.ə.VIII-VI əsrlərə aid etməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Veli Bahşeliyev. Nahçıvan arkeolojisi. Arkeoloji ve sanat yayınları. İstanbul, 1997.
2. Асланов Г.М.,Ваидов Р.М.,Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.
3. Г.Асланов, Б.Ибрагимов, С.Кашкай. Древние некрополи Хараба-Гилана. Баку, 2002.
4. Кашкай М.А., Селимханов И.Р. Из истории древней металлургии Кавказа. Баку, 1973.
5. Кашкай С.М. Из истории Маннейского царства. Баку, 1977.
6. Медведская И.Н. Металлические наконечники стрел Преднего Востока и Евразийских степей II-первой половины I тыс. до н.е. СА, 1980,1.
7. Пиотровский Б.Б. Искусство Урарту. Ленинград, 1962.
8. Medvedskaya I.N. Iran Iron Age I BAR International Series 126, 1982.
9. Veli Sevin, Ersin Kavaklı. Karagündüz nekropolü. İstanbul. 1996.
10. Salvini M. Eine urartische Felsinschrift in der Region Nachicevan. Zeitschrift fur die alttestamentliche Wissenschaft, Giessen. Berlin, 1998, n.1.

**Summary**

## NECROPOLIS MUNJUGLUTEPE

*Bahlul Ibragimov*

Necropolis Munjuglutepe is situated on a flat hillock about 10 m high. The surface of the hillock, 60x20 m, was planned in six rows from the north to the south with five or seven graves in each row. Each of them consists of two chambers. Sometimes the lower part of the walls is built of slabs standing on their edges, where the upper part is constructed of stones. Graves are covered with large stone slabs and are encircled with small stones. There is an entrance closed with a vertical slab in the west wall of each grave (rarely in the eastern ones). The number of skeletons found in graves reached 14.

The parallels of the ornament and weapons also can be noticed there and in the Transcaucasus. Materials of the necropolis can be dated back to the VIII-VI centuries B.C.